Sənət 13 oktyabr 2020-ci il (çərşənbə axşamı) ŞƏRQ

# "Biz İnanırıq"



## Mənsum İbrahimov: "Şanlı bayrağımız Qarabağda dalğalanacaq"

**"Gəncə hadisələrini eşidəndən sonra gözümüzə yuxu getmir. Gecənin bir yarısı, qəfil şəkildə şəhəri raket atəşinə tutdular. Belə bir şey gözləmirdik. Hesab edirəm ki, bu, Xocalıdan sonra xalqımıza qarşı törədilən soyqırımıdır".**

**Bu sözləri "Sherg.az"a xalq artisti Mənsum İbrahimov deyib. Gəncədə mülki əhalini hədəf alan düşmən təxribatından danışan sənətkar, dağıntılar zamanı yaralanan uşaqları da xüsusi qeyd edib:**

"İkinci böyük şəhərimiz olan Gəncəyə humanitar atəşkəs imzalandıqdan qısa müddət sonra raket atmaq nə deməkdir?! Günahsız insanlarımız həlak olub. Təəssüf ki, dünya buna səssiz qalır. Baş verənlər başqa dövlətdə olsaydı, bütün dünya olanlardan danışardı. Torpağı işğal olunan, zərərçəkən tərəfik, amma bizdən güzəşt etməyimizi istəyirlər. Ermənistanın terror əməllərinə səs çıxarmırlar".

**Mənsum İbrahimov vurğulayıb ki, baş verən son olaylar , törədilən təxribatlar unudulmayacaq. Həm dövlət başçımız, həm də müzəffər ordumuz düşmənin terror aktının cavabını verəcək:**

"Ermənistan beynəlxalq məhkəmə qarşısına çıxacaq. Düşünürəm ki, bütün bunlara baxmayaraq xalqımız ordumuzun, dövlət başçımızın arxasındadır. İnanırıq ki, Ali Baş Komandanımız bizə zəfər xəbəri verəcək. Əsgərlərimiz daim irəli gedəcək, şanlı bayrağımız Qarabağda dalğalanacaq. Şükürlər olsun ki, cəbhədən şad xəbərlər gəlir.

Şəhidlərimizin, günahsız yerə həlak olan mülki insanların qanı yerdə qalmayacaq. Şəhidlərimizin ruhları şad olsun. Mənim də yaxın qohumum şəhid olub. Şəhadət şərbəti içən igidlərimizin ruhu düşməni bağışlamayacaq.

Buna əminəm! Xalqımız da qisasımızın alınacağına inanır. Bu gün millətimiz dövlət başçımızla bir yerdədir. Hər birimiz Ali Baş Komandanın ətrafında sıx birləşən əsgərik. İnşallah Şuşada zəfər bayramında görüşəcəyik."

**Samirə Ərəbova**